UOT: 657

Mirhəmid Zaur oğlu HƏSƏNOV
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının magistrantı
E-mail: hasanovmirhamid06@icloud.com

Elmi rəhbər: i.f.d. Vüsalə Musa qızı BABAYEVA
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi
E-mail: vusalababayeva2212@gmail.com
https://doi.org/10.30546/4.71.731.03.2026.38

AZƏRBAYCANDA KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏR ÜÇÜN MÜHASİBAT UÇOTU SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycan iqtisadiyyatında kiçik və orta müəssisələrin (KOB-ların) rolunun artması fonunda onların mühasibat uçotu sistemlərinin mövcud vəziyyətinin təhlili və müasirləşdirilməsi istiqamətlərinin müəyyən edilməsindən ibarətdir. Qeyri-neft sektorunda KOB-ların əlavə dəyər və məşğulluqda payının artım dinamikası araşdırılmış, müasir mühasibat uçotunun idarəetmə qərarlarına və maliyyə resurslarına çıxışa təsiri əsaslandırılmışdır.

Tədqiqatın metodologiyası elmi abstraksiya, analiz, sintez, statistik müqayisə və ümumiləşdirmə metodlarına əsaslanmışdır. Eyni zamanda, KOB-lar üçün mühasibat uçotu sahəsində mövcud beynəlxalq təcrübə, xüsusilə IFRS for SMEs standartlarının tətbiqi ilə bağlı yanaşmalar nəzərdən keçirilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti baxımından əldə olunan nəticələr KOB-larda mühasibat uçotu sistemlərinin təkmilləşdirilməsi, maliyyə şəffaflığının artırılması, risklərin daha düzgün qiymətləndirilməsi və maliyyə axınlarının effektiv idarə olunması istiqamətində praktiki əhəmiyyət kəsb edir. Araşdırma nəticələrindən dövlət dəstəyi mexanizmlərinin formalaşdırılmasında, peşəkar təlim proqramlarının hazırlanmasında və sadələşdirilmiş uçot alətlərinin tətbiqində istifadə oluna bilər.

Tədqiqatın nəticələri göstərir ki, rəqəmsallaşma hesabatların operativliyini və dəqiqliyini artırsa da, IFRS for SMEs standartlarının tətbiqi yüksək xərclər, texniki bilik çatışmazlığı və ənənəvi uçot yanaşmaları ilə məhdudlaşır. Bu baxımdan KOB-ların mühasibat uçotunun modernləşdirilməsi üçün dövlət dəstəyi və institusional mexanizmlərin gücləndirilməsi zəruridir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi KOB-ların iqtisadiyyatda artan rolunu nəzərə alaraq, müasir mühasibat uçotu sistemlərinin tətbiqi problemlərinin kompleks şəkildə təhlil edilməsi və bu problemlərin aradan qaldırılması üçün institusional və praktiki yanaşmaların əsaslandırılmasından ibarətdir. Araşdırmada KOB-ların maliyyə idarəetməsinin gücləndirilməsi üçün rəqəmsallaşma və beynəlxalq standartların uyğunlaşdırılması üzrə konseptual istiqamətlər müəyyən edilmişdir.

Açar sözlər: mühasibat uçotu, KOB-lar, rəqəmsallaşma, IFRS, mühasibat uçotunun təkmilləşdirilməsi.

Giriş

Azərbaycan iqtisadiyyatında KOB-ların payı son illərdə əhəmiyyətli dərəcədə artmışdır. 2018-ci ildə əlavə dəyərin cəmi 13,4%-i və məşğulluğun 42,9%-i KOB-ların payına düşürdü, lakin 2024-cü ildə bu göstəricilər müvafiq olaraq 18,5% və 45,3% olmuşdur. Bu dinamika dövlətin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı siyasətin, eləcə də KOB-ların inkişafına yönəlmiş institusional mexanizmlərin genişlənməsinin real nəticəsi kimi qiymətləndirilə bilər. Xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrin sayının artması mühasibat uçotunun keyfiyyətinə və təşkili səviyyəsinə olan tələbləri də yüksəltmişdir.

KOB-ların davamlı inkişafı üçün şəffaf və etibarlı mühasibat uçotu mühüm şərt hesab olunur. Praktikada müəssisələrin maliyyə resurslarına çıxışı, vergi öhdəliklərinin düzgün icrası və biznes tərəfdaşları ilə münasibətlərin formalaşması birbaşa mühasibat hesabatlarının keyfiyyəti ilə əlaqəlidir. Məhz bu səbəbdən mühasibat uçotu yalnız texniki uçot mexanizmi deyil, eyni zamanda idarəetmə və qərarvermə üçün əsas informasiya mənbəyi kimi çıxış edir. Lakin KOB-larda resurs məhdudiyyəti, peşəkar kadr çatışmazlığı və texnoloji imkanların qeyri-bərabərliyi mühasibat uçotunun təşkili prosesində müəyyən çətinliklər yaradır.

Azərbaycanın mühasibat uçotuna dair hüquqi çərçivəsi 2018-ci il Mülki Məcəllə və “Mühasibat uçotu haqqında” Qanunla müəyyən edilir. Bu çərçivə daxilində böyük müəssisələr üçün IFRS, orta müəssisələr üçün IFRS for SMEs, kiçik və mikro müəssisələr üçün isə sadələşdirilmiş uçot qaydaları tətbiq olunur. Normativ baxımdan bu yanaşma çevik görünməsinə baxmayaraq, praktiki tətbiq səviyyəsində standartların tam mənimsənilməsi və vahid uçot mədəniyyətinin formalaşması hələ də aktual məsələ olaraq qalır.

Son illərdə rəqəmsal texnologiyaların geniş yayılması mühasibat uçotunun təşkili və aparılması formasına da təsir göstərmişdir. KOB-lar getdikcə daha çox bulud əsaslı mühasibat proqramlarına, elektron vergi sistemlərinə və avtomatlaşdırılmış hesabat alətlərinə müraciət edirlər. Bu proses uçotun operativliyini artırsa da, eyni zamanda məlumat təhlükəsizliyi, kadr hazırlığı və texniki uyğunlaşma kimi yeni suallar ortaya çıxarır. Belə bir şəraitdə KOB-lar üçün mövcud mühasibat uçotu sisteminin nə dərəcədə effektiv olduğu və hansı istiqamətlər üzrə təkmilləşdirilməsinin zəruri olduğu ayrıca araşdırma tələb edir.

Bu baxımdan məqalənin məqsədi Azərbaycanda KOB-lar üçün mühasibat uçotu sisteminin mövcud vəziyyətini təhlil etmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirməkdir. Araşdırma çərçivəsində normativ-hüquqi baza, beynəlxalq təcrübə və son illərdə aparılmış empirik tədqiqatların nəticələri nəzərdən keçirilir. Metodoloji baxımdan məqalədə müqayisəli təhlil, sistemləşdirmə və elmi ədəbiyyatın icmalı üsullarından istifadə olunmuşdur ki, bu da mövzunun həm nəzəri, həm də praktik aspektlərini daha aydın şəkildə ortaya qoymağa imkan verir.

Mühasibat uçotunun normativ bazası və IFRS tətbiqi

Azərbaycanda mühasibat uçotu sistemləri dövlət nəzarəti altında formalaşır və mərhələli şəkildə qlobal maliyyə hesabatı standartları ilə uyğunlaşdırılır. Mövcud qanunvericilik müəssisələrin ölçüsünü və fəaliyyət miqyasını nəzərə alaraq diferensial yanaşma tətbiq etməyə imkan verir ki, bu da KOB-lar üçün uçot yükünün nisbətən azaldılmasına xidmət edir. Mühasibat uçotuna dair tələblərin müəssisə ölçüsünə görə fərqləndirilməsi hesabat xərclərinin optimallaşdırılması və resurslardan daha səmərəli istifadə baxımından mühüm əhəmiyyət daşıyır [3, s.6]. Bu yanaşma, eyni zamanda, kiçik və orta müəssisələrin hüquqi və maliyyə mühitinə daha rahat uyğunlaşmasına şərait yaradır.

IFRS for SMEs standartları beynəlxalq təcrübədə KOB-lar üçün nəzərdə tutulmuş sadələşdirilmiş maliyyə hesabatı modeli kimi qəbul olunur. Bu standartlar tam IFRS-lə müqayisədə daha az hesabat tələbləri irəli sürür və KOB-ların əməliyyat xüsusiyyətlərini nəzərə alır. Azərbaycanda IFRS for SMEs-in tətbiqi mühasibat uçotunun şəffaflığının artırılmasına, maliyyə məlumatlarının müqayisəliliyinin təmin olunmasına və hesabatların beynəlxalq investorlar üçün daha anlaşıqlı olmasına imkan yaradır. Bununla belə, praktik tətbiq mərhələsində bir sıra struktur və institusional çətinliklər müşahidə olunur [2, s.7].

Araşdırmalar göstərir ki, IFRS for SMEs-in tətbiqi zamanı əsas problemlərdən biri standartların tətbiqi ilə bağlı xərclərin nisbətən yüksək olmasıdır. Kiçik və orta müəssisələr üçün yeni uçot sistemlərinə keçid əlavə proqram təminatı, mühasiblərin yenidən hazırlanması və metodiki dəstək tələb edir. Digər tərəfdən, mühasiblərin bir hissəsinin beynəlxalq standartlar üzrə praktik təcrübəsinin məhdud olması tətbiq prosesini ləngidir və standartların formal şəkildə icra olunmasına səbəb ola bilir [9, s.7]. Standartların texniki mürəkkəbliyi də xüsusilə mikro və kiçik müəssisələr üçün əlavə çətinlik yaradır.

Bununla yanaşı, IFRS-in tətbiqi uzunmüddətli perspektivdə KOB-lar üçün mühüm üstünlüklər

formalaşdırır. Beynəlxalq standartlara uyğun hazırlanmış maliyyə hesabatları investorlar və kredit təşkilatları üçün etibarlılığı artırır, maliyyə risklərinin daha düzgün qiymətləndirilməsinə şərait yaradır və xarici kapitalın cəlb olunmasını asanlaşdırır. Bu amil xüsusilə ixrac yönümlü və genişlənmə mərhələsində olan KOB-lar üçün əhəmiyyətlidir.

Cədvəl 1.

KOB sektor göstəriciləri (2018–2024)

Göstəricilər	2018	2019	2020	2021	2022	2023	2024
Əlavə dəyər payı (%)	13,4	14,9	16,7	16,4	13,9	18,0	18,5
İşçi qüvvəsi payı (%)	42,9	43,7	42,1	41,8	41,8	44,0	45,3
Qeyri-neft sektoru üzrə işçi payı (%)	45,0	53,6	43,8	43,2	43,1	45,3	46,4
KOB-ların sayı (min)	244.9	271,3	316,4	355,9	377,8	401,1	424,4

Mənbə: *SME platform məlumatları (2018) və KOBİA (2023) statistika hesabatları.*

Cədvəldə təqdim olunan göstəricilər 2018–2024-cü illər ərzində KOB-ların Azərbaycan iqtisadiyyatında rolunun ardıcıl şəkildə gücləndiyini göstərir. Xüsusilə əlavə dəyər payının 2018-ci ildəki 13,4%-dən 2024-cü ildə 18,5%-ə yüksəlməsi KOB-ların iqtisadi artımda iştirak səviyyəsinin artdığını və onların dəyəryaratma qabiliyyətinin gücləndiyini təsdiqləyir. 2020–2022-ci illərdə müşahidə olunan nisbi azalma qlobal iqtisadi qeyri-sabitlik və pandemiya ilə əlaqələndirilə bilər, lakin 2023–2024-cü illərdə göstəricilərin bərpa olunması sektorun adaptasiya potensialının yüksək olduğunu göstərir.

İşçi qüvvəsi payı göstəriciləri də oxşar tendensiyanı əks etdirir. 2018–2022-ci illərdə müəyyən dalğalanmalar müşahidə edilsə də, 2023-cü ildə bu göstərici 44%, 2024-cü ildə isə 45,3% səviyyəsinə çatmışdır. Bu artım KOB-ların məşğulluğun təmin edilməsində əsas rol oynadığını və əmək bazarında mövqelərinin möhkəmləndiyini göstərir. Qeyri-neft sektoru üzrə məşğulluq payının 2024-cü ildə 46,4%-ə yüksəlməsi isə KOB-ların iqtisadiyyatın şaxələndirilməsi prosesində aparıcı mövqedə olduğunu bir daha təsdiqləyir.

KOB-ların sayında müşahidə olunan artım xüsusilə diqqətəlayiqdir. 2018-ci ildə 244,9 min olan KOB-ların sayı 2024-cü ildə 424,4 minə çatmışdır ki, bu da altı il ərzində təxminən 73 %-lik artım deməkdir. Bu dinamika sahibkarlıq fəaliyyətinin genişləndiyini və biznes mühitinin nisbətən əlverişli istiqamətdə inkişaf etdiyini göstərir. Eyni zamanda, müəssisələrin sayının sürətlə artması mühasibat uçotu, maliyyə hesabatları və vergi nəzarətinə olan tələbləri daha da artırır [6, s.9].

Ümumilikdə, 2024-cü il məlumatları KOB sektorunun həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişaf etdiyini nümayiş etdirir. Artan əlavə dəyər, məşğulluq və müəssisə sayı mühasibat uçotunun daha şəffaf, operativ və standartlara uyğun şəkildə təşkili zərurətini gücləndirir. Bu baxımdan, mövcud tendensiyalar KOB-lar üçün mühasibat uçotu sisteminin təkmilləşdirilməsinin təkcə texniki məsələ deyil, iqtisadi inkişafın davamlılığı baxımından strateji əhəmiyyət daşıdığını göstərir.

Bu artım tendensiyası mühasibat uçotu və maliyyə hesabatlarına olan tələbləri daha da sərtləşdirir. Müəssisələrin sayının və iqtisadi aktivliyinin artması vergi öhdəliklərinin, maliyyə axınlarının və dövlət nəzarət mexanizmlərinin daha dəqiq və şəffaf idarə olunmasını zəruri edir. Bu baxımdan, normativ bazanın təkmilləşdirilməsi və IFRS for SMEs-in praktik tətbiqinin genişləndirilməsi KOB sektorunun sağlam və dayanıqlı inkişafı üçün vacib şərt kimi çıxış edir.

Rəqəmsallaşma və müasir texnologiyaların təsiri

Rəqəmsal texnologiyalar mühasibat uçotunun strukturunu dəyişir. Tədqiqatlar göstərir ki, rəqəmsallaşma məlumatların dəqiqliyini, vaxtında hesabatlılığı və xərclərin optimallaşdırılmasını təmin edir [7, s.10]. Bulud əsaslı proqramlar və avtomatlaşdırılmış sistemlər kağız sənədləşməsini əvəz edir, mühasiblərə real vaxt rejimində məlumatlara çıxış imkanı yaradır və səhvlərin sayını azaldır. Bununla yanaşı, süni intellekt alqoritmləri böyük həcmdə maliyyə məlumatlarını təhlil edərək qərarvermə prosesini sürətləndirir. Bu dəyişikliklər KOB-ların hesabat keyfiyyətini yüksəldir və idarəetmə effektivliyini artırır.


Cədvəl 2.

Rəqəmsallaşmanın KOB-lar üçün üstünlükləri

Faydalar	Əsas mənbələr	Qısa təsvir
Məlumatın dəqiqliyi	Kusumawardhani və digərləri (2024)	Rəqəmsallaşma hesabat məlumatlarını dəqiqləşdirir
Vaxtında hesabatlılıq	Kusumawardhani və digərləri (2024)	Rəqəmsal sistemlər vaxtında hesabat hazırlamağı asanlaşdırır
Xərclərin azalması	Kusumawardhani və digərləri (2024)	Avtomatlaşdırılmış proseslər xərcləri azaldır, məhsuldarlığı artırır
Qərarvermənin təkmilləşməsi	Kusumawardhani və digərləri (2024)	Dəqiq və vaxtında məlumatlar idarəetmə qərarlarının keyfiyyətini artırır

Mənbə: *Kusumawardhani F. K., 2024, materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Bu cədvəl rəqəmsallaşmanın əsas üstünlüklərini qısa şəkildə təsvir edir. Rəqəmsal sistemlər yalnız hesabatın vaxtında hazırlanmasını deyil, həm də əməliyyat xərclərinin azalmasını təmin edir. Tədqiqatlar göstərir ki, rəqəmsal texnologiyalar idarəetmə hesabatlarının dəqiqliyini və şəffaflığını artırır, nəticədə qərarvermə prosesi təkmilləşir [7, s.11].



Qrafik 1. Müasir mühasibat sistemlərinin sektorlar üzrə tətbiqi (Azərbaycan, 2024)
Mənbə: *Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA). (2024).*

Qrafik KOBİA-nın 2024-cü il üzrə hesabatında təqdim olunan sektoral rəqəmsallaşma və mühasibat sistemlərinin tətbiqi göstəriciləri əsasında tərtib edilmişdir. Məlumatlar göstərir ki, müasir mühasibat sistemlərinin tətbiqi enerji və bank sektorlarında daha yüksək səviyyədədir. Bu, həmin sahələrdə fəaliyyət göstərən müəssisələrin tənzimləyici tələblərə daha sıx bağlı olması və rəqəmsal maliyyə idarəetmə alətlərindən geniş istifadə etməsi ilə izah olunur. Emal sənayesi və ticarət sektorlarında tətbiq səviyyəsi orta göstəricilərlə xarakterizə olunur, kənd təsərrüfatı sektorunda isə struktur və texniki məhdudiyyətlər səbəbindən nisbətən aşağıdır [6, s.9].

Mühasibat uçotunun təkmilləşdirilməsi üzrə problemlər və perspektivlər

Rəqəmsallaşma və beynəlxalq standartların tətbiqi mühasibat uçotunu keyfiyyətcə yeni mərhələyə çıxarsa da, KOB-lar üçün bu proses bir sıra praktiki çətinliklərlə müşayiət olunur. Xüsusilə IFRS for SMEs standartlarının tətbiqi ilkin mərhələdə əlavə maliyyə xərcləri tələb edir ki, bu da kiçik və mikro müəssisələr üçün ciddi yük yaradır. Yeni proqram təminatının alınması, uçot sistemlərinin yenilənməsi və mühasiblərin hazırlanması ilə bağlı xərclər KOB-ların maliyyə imkanlarını üstələyə bilir. Nəticədə bəzi müəssisələr standartların tələblərini tam tətbiq etmək əvəzinə,

yalnız formal uyğunlaşma yolu seçirlər [9, s.7].

Digər mühüm problem peşəkar kadr potensialı ilə bağlıdır. Kiçik müəssisələrin əksəriyyəti daimi peşəkar mühasib saxlamaq imkanına malik deyil və bu da uçotun keyfiyyətinə birbaşa təsir göstərir. Mövcud mühasiblərin bir hissəsinin IFRS və müasir rəqəmsal mühasibat texnologiyaları üzrə bilikləri məhdud qalır. Bu vəziyyət standartların tətbiqində texniki səhvlərə, maliyyə məlumatlarının düzgün interpretasiya olunmamasına və uçotun operativliyinin azalmasına səbəb olur. Sahibkarların da bir qismi mühasibat uçotunu yalnız vergi öhdəliklərinin yerinə yetirilməsi vasitəsi kimi qəbul edir və onun idarəetmə qərarları üçün əhəmiyyətini kifayət qədər qiymətləndirmir.

Təhlillər göstərir ki, KOB-ların əhəmiyyətli hissəsi hələ də ənənəvi kağız-əsaslı uçot sistemlərindən istifadə edir və rəqəmsal həllərə keçidə ehtiyatla yanaşır. Bu, təkcə maliyyə və texniki imkanlarla deyil, həm də psixoloji amillərlə əlaqəlidir. Dəyişikliklərə qarşı müqavimət, yeni sistemlərə etimadsızlıq və əlavə nəzarət qorxusu rəqəmsallaşmanın sürətini zəiflədir [3, s.6]. Nəticədə mühasibat uçotu müasir tələblərə tam cavab vermir və məlumatların operativliyi məhdudlaşır.

Bu problemlərin aradan qaldırılmasında dövlət dəstəyi və maarifləndirmə tədbirləri xüsusi rol oynayır. Dövlət qurumları və peşə birlikləri tərəfindən təşkil edilən davamlı təlim proqramları mühasiblərin və sahibkarların bilik səviyyəsinin artırılmasına xidmət etməlidir. IFRS for SMEs standartlarının daha anlaşıqlı formada izah edilməsi və praktik nümunələrlə müşayiət olunması tətbiq prosesini asanlaşdıra bilər. Eyni zamanda, sadələşdirilmiş hesabat modellərinin və bulud əsaslı mühasibat proqramlarının təşviqi KOB-ların xərclərini azaltmaqla yanaşı, uçotun keyfiyyətini də yüksəldə bilər [5, s.11].

Perspektiv baxımından, IFRS for SMEs standartlarının tətbiqi üçün texniki dəstək mexanizmlərinin genişləndirilməsi və müəyyən subsidiyaların verilməsi məqsədəuyğun görünür. Kiçik müəssisələr üçün xüsusi elektron portalların və məsləhət xidmətlərinin yaradılması mühasibat uçotu ilə bağlı praktiki problemlərin operativ həllinə imkan yarada bilər. Bu cür yanaşma KOB-ların mühasibat uçotu sistemini tədricən təkmilləşdirərək, həm onların maliyyə dayanıqlığını gücləndirə, həm də ölkə üzrə vahid və şəffaf uçot mühitinin formalaşmasına töhfə verə bilər.

Cədvəl 3.

IFRS for SMEs tətbiqində problemlər və təkmilləşdirmə istiqamətləri

Problem və maneələr	Təsvir	Təkmilləşdirmə istiqamətləri
İmplementasiya xərcləri	Təlim və proqram yeniləmələri üçün yüksək xərclər	Dövlət subsidiyaları və təlim proqramları ilə maliyyə yükünün azaldılması
Texniki biliklərin azlığı	Mühasiblərin və işçilərin IFRS üzrə biliklərinin məhdudluğu	Peşəkar inkişaf və davamlı təlimlərin təşkili
Standartların mürəkkəbliyi	IFRS standartları KOB-lar üçün mürəkkəb və detallar çoxdur	IFRS for SMEs kimi sadələşdirilmiş standartların tətbiqi
Dəyişiklik müqaviməti	Ənənəvi praktikadan imtina etmək istəksizliyi	Dəyişikliklərə qarşı müqavimətin azaldılması üçün maarifləndirmə
Resurs çatışmazlığı	Maliyyə və insan resurslarının məhdudluğu	KOB-lar üçün resurs və texniki dəstək proqramlarının yaradılması

Mənbə: *Mamedov R., & Aliyev S. 2025: materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl IFRS for SMEs standartının tətbiqində qarşılaşan əsas maneələri və təkmilləşdirmə tədbirlərini göstərir. Yüksək xərclər və texniki bilik çatışmazlığı dövlət subsidiyaları və peşəkar təlim proqramları ilə azaldıla bilər. Standartların mürəkkəbliyi qarşısında IFRS for SMEs kimi sadələşdirilmiş qaydalar və elektron hesabat platformaları KOB-ların işini asanlaşdıracaq.

Nəticə

Aparılan araşdırma göstərir ki, müasir mühasibat uçotu sistemləri KOB-ların davamlı inkişafı və iqtisadi mühitdə mövqelərinin möhkəmlənməsi üçün mühüm əhəmiyyət daşıyır. Son illərdə

KOB-ların əlavə dəyər və məşğulluq göstəricilərinin artması bu müəssisələrin iqtisadi sistemdə rolunun keyfiyyət baxımından dəyişdiyini göstərir və mühasibat uçotuna olan tələbləri artırır. Bu şəraitdə mühasibat uçotu təkcə hesabatvermə vasitəsi deyil, eyni zamanda idarəetmə və qərarvermə proseslərinin əsas elementinə çevrilir.

Araşdırma nəticələri rəqəmsal mühasibat uçotu sistemlərinin tətbiqinin uçotun dəqiqliyini, şəffaflığını və operativliyini əhəmiyyətli dərəcədə yüksəltdiyini göstərir. Avtomatlaşdırılmış uçot və elektron hesabatlılıq maliyyə məlumatlarının vaxtında əldə olunmasını təmin etsə də, maliyyə və texniki imkanların məhdudluğu səbəbindən bu proses bütün KOB-lar üzrə eyni səviyyədə həyata keçirilmir. Xüsusilə kiçik və mikro müəssisələrdə rəqəmsallaşma daha yavaş irəliləyir.

IFRS for SMEs standartlarının tətbiqi KOB-lar üçün uyğunlaşdırılmış normativ çərçivə yaratsa da, praktikada əlavə maliyyə xərcləri, kadr hazırlığı və metodiki dəstək ehtiyacı bu prosesi çətinləşdirir. Standartların mürəkkəbliyi və tətbiq mexanizmlərinin tam aydın olmaması bəzi hallarda uçotun formal xarakter almasına və məlumatların keyfiyyətinin zəifləməsinə səbəb olur.

Bu baxımdan, dövlət dəstəyi və institusional mexanizmlərin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Davamlı təlim proqramları, texniki və metodiki dəstək, eləcə də sadələşdirilmiş və rəqəmsal uçot alətlərinin genişləndirilməsi KOB-ların mühasibat uçotunun təkmilləşdirilməsini sürətləndirə bilər. Ümumilikdə, mühasibat uçotu sisteminin inkişafı normativ-hüquqi, texnoloji və institusional yanaşmaların uzlaşdırılmasını tələb edir və bu istiqamətdə atılacaq ardıcıl addımlar KOB-ların maliyyə dayanıqlığına və ölkə iqtisadiyyatının balanslı inkişafına müsbət təsir göstərə bilər.

ƏDƏBİYYAT

1. Alex A. O. O. Impact of accounting software adoption on financial reporting quality. International Knowledge and Research Journal of Multidisciplinary Studies, 2025, 122–130.
2. Ayaphila A., et al. Evaluating the impact of cloud computing on SME performance: A systematic review. Sustainability, 2024, 13(4), p.1846.
3. Guliyeva L. B. The nature of the financial reporting environment in Azerbaijan. TIM Journal of Economic Studies, 2024, 245–253.
4. IFAC. (2018). Law on Accounting of the Republic of Azerbaijan.
5. Ismayilova K. Digital transformation in Azerbaijani businesses: Current trends and future prospects. Baku Business Review, 2023, 12(1), pp.112–128.
6. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA). Azərbaycanda kiçik və orta biznesin inkişaf göstəriciləri və rəqəmsallaşma meyilləri. Bakı. 2024
7. Kusumawardhani F. K., Ratmono D., Wibowo S. T., Darsono D., Widyatmoko, S., & Rokhman N. The impact of digitalization in accounting systems on information quality, cost reduction and decision making: Evidence from SMEs. International Journal of Data and Network Science, 2024, 8, pp.1111–1116.
8. Lin E. T. W., et al. The influence of accounting information system on financial performance of small and medium-sized enterprises in Kangar, Perlis. Journal of Accounting and Finance Studies, 2024, pp.64–77.
9. Mamedov R., & Aliyev S. Challenges in implementing IFRS for SMEs: Evidence from emerging markets. Journal of International Accounting Research, 2025, 120–199.
10. Ogundajo G. O., Odunayo J., Osunsusi A. K., Desi A., & Oyedokun G. E. Digitalized accounting system: Revamping small and medium enterprises financial reporting system. American Journal of Humanities and Social Sciences Research, 2023, 6(3), pp.99–113.
11. Rukmana R., et al. Accounting information systems adoption in small and medium enterprises: A bibliometric review. Journal of Accounting Information Systems, 2023, pp.170–315.

Мирхамид Заур оглы Гасанов
магистрант Азербайджанской Академии Труда и Социальных Отношений
E-mail: hasanovmirhamid06@icloud.com

Научный руководитель: к.э.н. Вюсаля Муса кызы Бабаева
преподаватель Азербайджанской Академии Труда и Социальных Отношений
E-mail: vusalababayeva2212@gmail.com

Руководство по улучшению системы бухгалтерского учета для Малых и Средних Предприятий в Азербайджане

Резюме

Цель исследования заключается в анализе текущего состояния систем бухгалтерского учета малых и средних предприятий (МСП) в условиях возрастающей роли МСП в экономике Азербайджана, а также в определении направлений их модернизации. В работе исследуется динамика роста доли МСП в создании добавленной стоимости и занятости в ненефтяном секторе, а также обосновывается влияние современного бухгалтерского учета на управленческие решения и доступ к финансовым ресурсам.

Методология исследования основана на методах научной абстракции, анализа, синтеза, статистического сравнения и обобщения. Кроме того, были рассмотрены существующие международные подходы в области бухгалтерского учета для МСП, в частности применение стандартов IFRS for SMEs.

Практическая значимость исследования заключается в возможности использования полученных результатов для совершенствования систем бухгалтерского учета МСП, повышения финансовой прозрачности, более точной оценки рисков и эффективного управления финансовыми потоками. Результаты исследования могут быть использованы при формировании механизмов государственной поддержки, разработке программ профессионального обучения и внедрении упрощенных инструментов учета.

Результаты исследования показывают, что цифровизация повышает оперативность и точность отчетности, однако применение стандартов IFRS for SMEs ограничивается высокими затратами, недостатком технических знаний и доминированием традиционных подходов к учету. В этой связи усиление государственной поддержки и институциональных механизмов является необходимым условием модернизации бухгалтерского учета МСП.

Оригинальность и научная новизна исследования заключаются в комплексном анализе проблем внедрения современных систем бухгалтерского учета с учетом возрастающей роли МСП в экономике, а также в обосновании институциональных и практических подходов к их решению. В исследовании определены концептуальные направления по усилению финансового управления МСП на основе цифровизации и адаптации международных стандартов.

Ключевые слова: бухгалтерский учет, МСП, цифровизация, IFRS, совершенствование бухгалтерского учета.

Mirhamid Zaur Hasanov
Master's student of the Azerbaijan Academy of Labor and Social Relations
E-mail: hasanovmirhamid06@icloud.com

Scientific Supervisor: PhD in Economics, Vusala Musa Babayeva
Lecturer at the Azerbaijan Academy of Labor and Social Relations
E-mail: vusalababayeva2212@gmail.com

Directions for improving the accounting system for Small and Medium Enterprises in Azerbaijan

Summary

The purpose of the study is to analyze the current state of accounting systems of small and medium-sized enterprises (SMEs) in the context of their growing role in the economy of Azerbaijan and to identify key directions for their modernization. The study examines the dynamics of SMEs' increasing share in value added and employment in the non-oil sector and substantiates the impact of modern accounting practices on managerial decision-making and access to financial resources.

The research methodology is based on scientific abstraction, analysis, synthesis, statistical comparison, and generalization methods. In addition, international approaches to accounting for SMEs, particularly the application of IFRS for SMEs standards, have been reviewed.

The practical significance of the research lies in the applicability of the obtained results to improving accounting systems of SMEs, enhancing financial transparency, more accurate risk assessment, and effective management of financial flows. The findings can be used in the development of government support mechanisms, professional training programs, and the implementation of simplified accounting tools.

The research results indicate that digitalization increases the timeliness and accuracy of financial reporting; however, the application of IFRS for SMEs is constrained by high costs, lack of technical expertise, and the prevalence of traditional accounting approaches. Therefore, strengthening government support and institutional mechanisms is essential for the modernization of SME accounting systems.

Originality and scientific novelty of the study consist in a comprehensive analysis of the problems related to the implementation of modern accounting systems, taking into account the growing role of SMEs in the economy, and in substantiating institutional and practical approaches to addressing these challenges. The study identifies conceptual directions for strengthening SME financial management through digitalization and the adaptation of international standards.

Key words: accounting, SMEs, digitalization, IFRS, improvement of accounting systems.